Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Rusiyanın Ukraynaya zərbələrindən 12 nəfər ölüb

indicə




Kiyev vilayətinə hücum

Sentyabrın 1-nə keçən gecə Rusiya qoşunları Kiyev və Odessa vilayətlərinə kütləvi hücum edib. 12 nəfər ölüb, 19 nəfər yaralanıb.

Kiyev şəhərində 8 nəfər ölüb, ikisi uşaq olmaqla beş nəfər yaralanıb.

Kiyev vilayətində 4 nəfər ölüb, 13 nəfər yaralanıb.

Rəsmilər yaşayış binaları, fərdi evlərin, eləcə də qeyri-yaşayış sahələrinə ziyan dəydiyini açıqlayıblar.

Odessa vilayətində bir nəfər yaralanıb. Ukrayna prezidenti **Volodimir Zelenski** bildirib ki, Odessa vilayətində minlərlə ailə işıqsız qalıb.

Rusiya Müdafiə Nazirliyi Kiyev vilayətində hərbi-sənaye və yanacaq-energetika komplekslərinə aid müəssisələrin vurulduğunu bildirib. Nazirliyin iddiasına görə, həmin müəssisələr raket və dron istehsalında, Ukrayna Silahlı Qüvvələrinin yanacaqla təminatında iştirak edib.

Ukrayna Hərbi Hava Qüvvələrinin məlumatına görə, Rusiya Ukraynaya "İskəndər-M"/"KN-23"/"S-400" ballistik raketləri, "Sirkon" gəmi əleyhinə qanadlı raketlər, "Kalibr" qanadlı raketləri, "Banderol" raket-dronları və 218 dron buraxıb.

Ukrayna qüvvələrinin beş ballistik raketi, beş "Kalibr" raketini, iki "Banderol" raket-dronunu və 187 dronu vurduğu bildirilir.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur